**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində Bakı Sağlamlıq Mərkəzinin yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi xidmətlərlə təmin olunması dövlətin sosial-iqtisadi siyasətinin prioritetlərindəndir. Son illərdə həyata keçirilən islahatlar nəticəsində dövlətin iqtisadi potensialının daha da artması ölkədə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması problemlərinin davamlı həlli üçün geniş imkan yaratmışdır.

Əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi məqsədi ilə həyata keçirilmiş tədbirlər nəticəsində əsas strateji xətt - səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün əlçatanlığının təmin edilməsi ilə bağlı bir sıra mühüm nailiyyətlər əldə edilmişdir. Səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payı dinamik şəkildə artmış, səhiyyənin maddi-texniki bazası gücləndirilmiş, paytaxtda və regionlarda çoxsaylı tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, müasir tibbi avadanlıqla təchizatı həyata keçirilmişdir.

Bu tədbirlərin davamı olaraq, növbəti dövrlərdə də səhiyyə xidmətlərinin müasir tələblərə uyğunlaşdırılması, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi əsaslarla təkmilləşdirilməsi və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi qarşıda duran əsas məqsədlərdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində də müasir tələblərə uyğun səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, keyfiyyətli səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi əsas strateji hədəf və prioritetlər kimi müəyyən edilmişdir.

Qeyd olunan hədəflərə çatmaq baxımından ölkədə səhiyyənin idarə edilməsinin təkmilləşdirilməsi, müxtəlif səviyyəli idarəetmə strukturlarının səlahiyyətlərinin səmərəli şəkildə ayrılması və onların fəaliyyətinin əlaqələndirilməsi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dövlət səhiyyə sisteminə daxil olan qurumların

idarəedilməsini təkmilləşdirmək, tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsinin artırılmasına nail olmaq, tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərini təkmilləşdirmək və əhalinin sağlamlığının etibarlı müdafiəsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Bakı Sağlamlıq Mərkəzi" əsasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Bakı Sağlamlıq Mərkəzi (bundan sonra - Mərkəz) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi dövlət büdcəsindən ayırmalar, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalar, ianələr, qrantlar və nizamnaməsində müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilir;

2.2. Mərkəzdə 3 nəfərdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Mərkəzin Müşahidə Şurasının sədrini və digər üzvlərini Azərbaycan Respublikasının səhiyyə naziri vəzifəyə təyin və vəzifədən azad edir;

2.4. Mərkəzin fəaliyyətinə cari rəhbərliyi Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor həyata keçirir.

3. Mərkəzdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin yenidən təşkil və ləğv edilməsi;

3.1.2. icra orqanının yaradılması;

3.2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. Mərkəz dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Bakı Sağlamlıq Mərkəzi"nin balansındakı əmlakın Mərkəzin balansına verilməsini bir ay müddətində təmin etsin;

4.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

5.1. bir ay müddətində:

5.1.1. Mərkəzin nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

5.1.2. Mərkəzin strukturunu təsdiq etsin;

5.2. Mərkəzin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

5.3. Mərkəz dövlət qeydiyyatına alındığı gündən 3 (üç) gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

5.4. bu Fərmanın 4.3-cü bəndinə uyğun olaraq Mərkəzin balansına verilən dövlət əmlakının qiymətləndirilərək Mərkəzin nizamnamə fondunda nəzərə alınması üçün tədbirlər görsün;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Mərkəzin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

7. Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Bakı Sağlamlıq Mərkəzi" öz fəaliyyətini davam etdirsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 oktyabr 2017-ci il
№ 1639